AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

https://doi.org/10.30546/2707-2037.052.2.2026.1111

Qasımov Rza Əhməd oğlu,
iqtisad elmləri namizədi,
Bakı Biznes Universiteti,
E-mail: axmedovic1963@gmail.com;

Cavadov Ramiz Cavad oğlu,
iqtisad üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
E-mail: ramizjavad@gmail.com
© Qasımov R.Ə., Cavadov R.C., 2026

JEL: M41, M14, O16
UOT: 657.1:502.131.1

AZƏRBAYCANDA MALİYYƏ UÇOTU SİSTEMİNİN DAYANIQLI İNKİŞAF VƏ "ESG" YANAŞMALARI ƏSASINDA TƏKMİLLƏŞDİRİLMƏSİ

X Ü L A S Ə

Tədqiqatın məqsədi - dayanıqlı inkişaf məqsədləri kontekstində Azərbaycanda maliyyə uçotu sisteminin mövcud vəziyyətini təhlil etmək, əsas normativ, institusional və metodoloji problemləri müəyyənləşdirmək və onların həlli üzrə elmi-praktiki tövsiyələr hazırlamaqdır.

Təqiqatın metodologiyası - sistemli və kompleks yanaşmaya, müqayisəli analiz, statistik təhlil və analitik ümumiləşdirmə metodlarından istifadəyə əsaslanmışdır. İnformasiya bazasını beynəlxalq təşkilatların (Dünya Bankı-DB, Beynəlxalq Valyuta Fondu-BVF, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı -İƏİT) və milli mənbələrin məlumatları təşkil edir. Təhlil Ətraf mühit, Sosial aspektlər və İdarəetmə aspektləri - ESG yanaşması əsasında aparılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr normativ islahatların hazırlanmasında, ESG hesabatlılığın tətbiqində, şəffaflığın artırılmasında və mühasibat uçotu üzrə təhsil sisteminin təkmilləşdirilməsində istifadə oluna bilər.

Tədqiqatın nəticələri - Azərbaycanda maliyyə uçotu sistemi beynəlxalq standartlara uyğunlaşsa da, bir sıra sistemli problemlər qalmaqdadır. Beynəlxalq Maliyyə Hesabatı Standartlarının (BMHS - İFRS) tətbiqi əsasən iri müəssisələrdə cəmləşir, KOB-larda isə məhduddur. "ESG" göstəricilərinin maliyyə hesabatlarına inteqrasiyası hələ də zəif səviyyədə qalır, maliyyə və vergi uçotunun yüksək dərəcədə inteqrasiya olunması isə müəssisələrin analitik və idarəetmə imkanlarını məhdudlaşdırır. Bununla yanaşı, rəqəmsallaşma prosesində mövcud olan qeyri-bərabərlik, ixtisaslı insan kapitalının çatışmazlığı və ESG məlumatlarına investor marağının yetərincə formalaşmaması da müasir uçot sisteminin inkişafına maneə yaradan əsas problemlər sırasında yer alır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - maliyyə uçotunun Azərbaycanda ilk dəfə dayanıqlı inkişaf və ESG kontekstində kompleks təhlilindədir. İşdə İFRS tətbiq səviyyəsi strukturlaşdırılmış şəkildə qiymətləndirilmiş, səbəb-nəticə-risk matrisi təqdim olunmuş və problemlər vahid analitik çərçivədə sistemləşdirilmişdir.

Açar sözlər: dayanıqlı inkişaf, maliyyə uçotu, ESG, IFRS, inteqrasiya olunmuş hesabatlılıq, rəqəmsallaşma, korporativ idarəetmə, şəffaflıq.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

G İ R İ Ş

Müasir qlobal iqtisadi sistemdə dayanıqlı inkişaf konsepsiyası dövlətlərin və müəssisələrin əsas strateji prioritetlərindən birinə çevrilmişdir [12, s.25-28; 11, s.88-121]. Xüsusilə Birləşmiş Millətlər Təşkilatı (BMT-UN) tərəfindən qəbul olunmuş Dayanıqlı İnkişaf Məqsədləri (SDG) iqtisadi, sosial və ekoloji tarazlığın təmin edilməsinə yönəlmiş universal inkişaf çərçivəsi kimi çıxış edir [13, s.5-27]. Bu məqsədlərin reallaşdırılması isə yalnız makroiqtisadi siyasətlə deyil, həm də müəssisə səviyyəsində şəffaf və keyfiyyətli informasiya təminatı ilə sıx bağlıdır. Bu baxımdan, maliyyə uçotu sistemi xüsusi əhəmiyyət kəsb edir. Mühasibat uçotu yalnız maliyyə nəticələrinin qeydiyyatı vasitəsi olmayıb, eyni zamanda qərar qəbuletmə prosesinin əsas informasiya bazası kimi çıxış edir. Son illərdə dayanıqlı inkişaf prinsiplərinin iqtisadi fəaliyyətə inteqrasiyası maliyyə uçotuna olan tələbləri əhəmiyyətli dərəcədə genişləndirmiş, xüsusilə qeyri-maliyyə məlumatlarının açıqlanması və ESG göstəricilərinin hesabatlılıq sisteminə daxil edilməsi aktuallaşmışdır [5, s.15; 6, s.21].

Ənənəvi maliyyə uçotu sistemi əsasən maliyyə göstəricilərinə fokuslandığı halda, müasir dövrdə dayanıqlı inkişafın tələbləri bu yanaşmanın məhdudluğunu ortaya qoyur. Ekoloji təsirlər, sosial məsuliyyət və korporativ idarəetmə kimi amillər artıq iqtisadi fəaliyyətin ayrılmaz komponentlərinə çevrilmişdir. Buna baxmayaraq, bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da bu göstəricilərin maliyyə uçotu və hesabatlılıq sisteminə inteqrasiyası tam formalaşmamışdır.

Eyni zamanda, beynəlxalq standartların tətbiqi məsələsi də aktual olaraq qalır.İFRS maliyyə hesabatlarının şəffaflığını artırsa da, dayanıqlı inkişaf göstəricilərinin uçot sisteminə inteqrasiyası üçün əlavə metodoloji yanaşmalar tələb olunur. Bu isə normativ-hüquqi bazanın təkmilləşdirilməsini, institusional mexanizmlərin gücləndirilməsini və maliyyə uçotu sisteminin modernləşdirilməsini zəruri edir.

Tədqiqatın əsas məqsədi dayanıqlı inkişaf məqsədləri kontekstində Azərbaycanda maliyyə uçotunun mövcud vəziyyətini təhlil etmək, əsas problemləri müəyyənləşdirmək və onların həlli üzrə elmi-praktiki tövsiyələr hazırlamaqdır. Tədqiqat məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- dayanıqlı inkişaf və maliyyə uçotu arasında qarşılıqlı əlaqənin nəzəri əsaslarının təhlili;
- Azərbaycanda maliyyə uçotu sisteminin mövcud vəziyyətinin qiymətləndirilməsi;
- ESG və qeyri-maliyyə göstəricilərinin uçota inteqrasiyası problemlərinin müəyyənləşdirilməsi;
- maliyyə hesabatlarının şəffaflığı və keyfiyyəti üzrə əsas çatışmazlıqların təhlili;
- dayanıqlı inkişaf kontekstində maliyyə uçotunun təkmilləşdirilməsi istiqamətlərinin əsaslandırılması.

Tədqiqatın obyekti Azərbaycanda fəaliyyət göstərən müəssisələrin maliyyə uçotu sistemidir. Tədqiqatın predmeti isə dayanıqlı inkişaf məqsədləri kontekstində maliyyə uçotunun funksional xüsusiyyətləri, mövcud problemləri və onların həlli istiqamətləridir.

Tədqiqatda müqayisəli analiz, sistemli yanaşma, statistik təhlil və analitik ümumiləşdirmə metodlarından istifadə edilmişdir. İnformasiya bazasını beynəlxalq və milli mənbələr təşkil edir. Bunlara DB, BVF, eləcə də Azərbaycan Respublikasının rəsmi statistika orqanlarının məlumatları və normativ-hüquqi sənədlər daxildir.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

1. Ədəbiyyat icmalı

Dayanıqlı inkişaf və maliyyə uçotu arasındakı əlaqə son illərdə iqtisadi və maliyyə ədəbiyyatında geniş şəkildə araşdırılan istiqamətlərdən birinə çevrilmişdir. Bu yanaşmanın nəzəri əsasları ilk dəfə olaraq Ətraf Mühit və İnkişaf üzrə Dünya Komissiyası (World Commission on Environment and Development) tərəfindən hazırlanmış "Ortaq gələcəyimiz" ("Our Common Future") hesabatında irəli sürülmüşdür [14, s.43-65]. Daha sonrakı tədqiqatlar dayanıqlı inkişafın iqtisadi, sosial və ekoloji komponentlərinin qarşılıqlı əlaqəsini vurğulamışdır [13, s.5-7; 12, s.1-5; 11, s.88-91].

Maliyyə uçotunun rolu ənənəvi olaraq maliyyə nəticələrinin ölçülməsi və hesabatlılığın təmin edilməsi ilə əlaqələndirilsə də, müasir dövrdə onun funksional çərçivəsi genişlənmişdir. R.Buşman və C.Smis (2001) maliyyə uçotunun korporativ idarəetmə və qərar qəbuletmə prosesində mühüm informasiya təminatçısı olduğunu qeyd edirlər[4, s.240-244]. Bart və başqaları (2008) isə beynəlxalq standartların tətbiqinin maliyyə hesabatlarının keyfiyyətini və şəffaflığını artırdığını empirik olaraq sübut etmişdirlər.

Dayanıqlı inkişafın uçot sisteminə inteqrasiyası ilə bağlı əsas yanaşmalardan biri ESG (Environmental, Social, Governance) konsepsiyasıdır.R.Eccles və M.Krzus (2010) inteqrasiya olunmuş hesabatlılıq modelini təqdim edərək maliyyə və qeyri-maliyyə məlumatlarının vahid sistemdə təqdim olunmasının zəruriliyini əsaslandırmışlar [5, s.21-27]. Lev (2001) isə qeyri-maddi aktivlərin və qeyri-maliyyə göstəricilərinin müəssisələrin real dəyərinin qiymətləndirilməsində mühüm rol oynadığını vurğulamışdır[10, s.17-19].

Beynəlxalq təşkilatlar da bu istiqamətdə mühüm metodoloji çərçivələr təqdim etmişdir. Global Reporting Initiative standartları qeyri-maliyyə hesabatlılığın formalaşdırılmasında əsas alətlərdən biri hesab olunur [6, s.21-27]. Eyni zamanda, Beynəlxalq Maliyyə Hesabatı Standartları-BMHS (International Financial Reporting Standards-İFRS) maliyyə hesabatlarının vahid və müqayisəli prinsiplər əsasında hazırlanmasını təmin edir [8, s.35-38]. BVF(IMF) - 2021 və DB(WB)-2019 hesabatlarında isə dayanıqlı maliyyə və hesabatlılıq sistemlərinin iqtisadi sabitlik və investisiya mühiti üçün əhəmiyyəti xüsusi vurğulanır.

İnkişaf etməkdə olan ölkələr üzrə aparılan tədqiqatlar göstərir ki, dayanıqlı hesabatlılığın tətbiqi bir sıra institusional və metodoloji çətinliklərlə müşayiət olunur. İƏİT (2020) hesabatında qeyd edir ki, xüsusilə kiçik və orta müəssisələr üçün ESG standartlarının tətbiqi maliyyə və insan resursları baxımından əlavə yük yaradır. Bu isə dayanıqlı inkişaf prinsiplərinin praktiki tətbiqini məhdudlaşdırır.

Azərbaycana dair elmi ədəbiyyat nisbətən məhdud olsa da, mövcud tədqiqatlar maliyyə uçotu sisteminin beynəlxalq standartlara uyğunlaşma mərhələsində olduğunu göstərir. Dünya Bankı tərəfindən hazırlanmış Standartların və Məcəllələrin Gözlənilməsinə dair (Reports on the Observance of Standards and Codes -ROSC) hesabatıda Azərbaycanda IFRS tətbiqində irəliləyişlər qeyd olunsa da, qeyri-maliyyə hesabatlılıq və audit keyfiyyəti sahəsində problemlərin mövcud olduğu vurğulanır [15, s.18-25].

Beləliklə, mövcud ədəbiyyat göstərir ki, maliyyə uçotu sisteminin dayanıqlı inkişaf prinsiplərinə uyğunlaşdırılması beynəlxalq səviyyədə aktual elmi istiqamət olmaqla yanaşı, inkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda, əlavə institusional və metodoloji problemlərlə müşayiət olunur. Bu isə mövzunun daha dərin və kompleks tədqiqini zəruri edir.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

2. Dayanıqlı inkişaf və maliyyə uçotu: nəzəri-metodoloji əsaslar

Dayanıqlı inkişaf anlayışı müasir iqtisadi nəzəriyyədə iqtisadi artımın sosial rifah və ekoloji tarazlıqla uzlaşdırılmasını nəzərdə tutur. Bu yanaşma iqtisadi, sosial və ekoloji komponentlərin qarşılıqlı əlaqəsi əsasında formalaşaraq uzunmüddətli və balanslı inkişafın təmin edilməsinə yönəlmişdir [14, s.43-45]. İqtisadi komponent resursların səmərəli istifadəsini və davamlı artımı, sosial komponent əhalinin rifah səviyyəsinin yüksəldilməsini və sosial bərabərliyi, ekoloji komponent isə ətraf mühitin qorunmasını və təbii resursların davamlı istifadəsini əhatə edir [11, s.88-91].

Bu konsepsiyanın institusional çərçivəsi BMT tərəfindən qəbul olunmuş Dayanıqlı İnkişaf Məqsədləri (SDG) vasitəsilə müəyyən edilmişdir [13, s.5-7]. SDG iqtisadi inkişafın sosial inklüzivlik və ekoloji məsuliyyət prinsipləri ilə uzlaşdırılmasını təmin edən universal məqsədlər sistemidir və dövlətlərlə yanaşı müəssisələrin də fəaliyyətində bu prinsiplərin tətbiqini zəruri edir.Maliyyə uçotu sistemi bu prosesdə mühüm rol oynayır. Onun əsas funksiyaları informasiya təminatı, nəzarət və analitik dəstəkdən ibarət olmaqla, iqtisadi subyektlərin fəaliyyətinin qiymətləndirilməsi və qərar qəbuletmə prosesində etibarlı məlumat bazasının formalaşdırılmasına xidmət edir [4, s.250-255]. Müasir şəraitdə maliyyə uçotu yalnız maliyyə göstəricilərinin qeydiyyatı ilə məhdudlaşmır, həm də dayanıqlı inkişaf göstəricilərinin ölçülməsi və açıqlanması üçün mühüm alətə çevrilir [3, s.470-473]. Bu baxımdan, ESG yanaşması xüsusi əhəmiyyət kəsb edir. ESG prinsipləri müəssisələrin fəaliyyətinin yalnız maliyyə nəticələri üzrə deyil, həm də ekoloji təsir, sosial məsuliyyət və korporativ idarəetmə meyarları əsasında qiymətləndirilməsini nəzərdə tutur. Bu yanaşmanın maliyyə uçotu sisteminə inteqrasiyası qeyri-maliyyə məlumatlarının sistemli şəkildə toplanmasını və hesabatlılıq prosesinə daxil edilməsini tələb edir [5, s.15-17; 9, s.12-15].

Beynəlxalq səviyyədə bu istiqamətdə müxtəlif standartlar formalaşdırılmışdır. BVF Beynəlxalq Maliyyə Hesabatı Standartlarının(IFRS) maliyyə hesabatlarının vahid və şəffaf prinsiplər əsasında hazırlanmasını təmin edir [8, s.42-47]. Bununla yanaşı, Qlobal Hesabatlılıq Təşəbbüsü (Global Reporting Initiative) standartları dayanıqlı inkişaf üzrə qeyri-maliyyə məlumatlarının açıqlanmasını tənzimləyən əsas çərçivələrdən biri hesab olunur [6, s.31-37].

Dayanıqlı hesabatlılıq anlayışı müəssisələrin iqtisadi, sosial və ekoloji fəaliyyət nəticələrinin kompleks şəkildə açıqlanmasını nəzərdə tutur. Bu yanaşmanın daha inkişaf etmiş forması isə inteqrasiya olunmuş hesabatlılıqdır ki, burada maliyyə və qeyri-maliyyə məlumatları vahid hesabat çərçivəsində təqdim olunur. Bu, maraqlı tərəflər üçün daha dolğun informasiya təmin etməklə yanaşı, müəssisələrin uzunmüddətli dəyər yaratma potensialının daha obyektiv qiymətləndirilməsinə imkan yaradır [5, s.35-37; 10, s. 21-33].

3. Azərbaycanda maliyyə uçotunun mövcud vəziyyətinin qiymətləndirilməsi

Azərbaycanda maliyyə uçotu sistemi normativ-hüquqi baza, beynəlxalq standartlara uyğunlaşma və institusional tənzimləmə əsasında formalaşır. Bu sahənin əsas hüquqi çərçivəsini "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu təşkil edir ki, burada maliyyə hesabatları təsərrüfat subyektinin maliyyə vəziyyəti və fəaliyyət nəticələri barədə sistemləşdirilmiş informasiya kimi müəyyən edilir [1].

Maliyyə uçotunun tənzimlənməsində Azərbaycan Respublikasının Maliyyə Nazirliyi əsas institusional rol oynayır. Nazirlik milli mühasibat uçotu standartlarının hazırlanması və tətbiqinə nəzarət edir, eyni zamanda beynəlxalq standartlara uyğunlaşma prosesini həyata keçirir.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

Dünya Bankının hesabatına əsasən, Azərbaycanda mühasibat uçotu sisteminin inkişafı istiqamətində MHBS-in tətbiqi mühüm irəliləyiş kimi qiymətləndirilir [15, s.28-33].

Azərbaycanda maliyyə hesabatlarının hazırlanmasında Beynəlxalq Maliyyə Hesabatı Standartları (İFRS) standartlarının tətbiqi tədricən genişlənir. Xüsusilə ictimai əhəmiyyətli qurumlar üçün IFRS tətbiqi məcburi xarakter daşıyır, bu isə maliyyə hesabatlarının şəffaflığını və müqayisəliliyini artırır [8, s.42-45]. Bununla belə, kiçik və orta müəssisələrdə (KOB) IFRS-in tətbiqi məhdud qalır və bu sahədə metodoloji və institusional çətinliklər mövcuddur [11, s.91-95].

Müəssisələrdə uçot sisteminin əsas xüsusiyyətlərindən biri maliyyə və vergi uçotunun yüksək səviyyədə inteqrasiyasıdır. Praktikada uçot prosesinin əsasən vergi öhdəliklərinin yerinə yetirilməsinə yönəlməsi maliyyə məlumatlarının idarəetmə və analitik məqsədlər üçün istifadəsini məhdudlaşdırır [9, s.21-24]. Bu isə xüsusilə dayanıqlı inkişaf və ESG göstəricilərinin uçot sisteminə inteqrasiyasını çətinləşdirir.

Beynəlxalq inteqrasiya baxımından MHBS-nin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda IFRS-in tətbiqi subyektlərin ölçüsündən və statusundan asılı olaraq diferensial xarakter daşıyır.

Cədvəl 1.

Azərbaycanda IFRS tətbiq səviyyəsi üzrə struktur

Müəssisə kateqoriyası	IFRS tətbiq səviyyəsi	Xüsusiyyətlər	Əsas problemlər
İctimai əhəmiyyətli qurumlar (banklar, sığorta, listinq şirkətləri)	Tam tətbiq (məcburi)	Yüksək şəffaflıq, beynəlxalq uyğunluq	Komplekslik, yüksək tətbiq xərcləri
Böyük müəssisələr	Qismən / geniş tətbiq	IFRS-ə yaxın hesabatlılıq	Metodoloji boşluqlar
Kiçik və orta müəssisələr (KOB)	Məhdud tətbiq	Sadələşdirilmiş uçot sistemi	Resurs çatışmazlığı, kadr problemi
Mikro müəssisələr	Minimum / tətbiq olunmur	Vergiyönümlü uçot	Şəffaflıq zəifliyi

Mənbə: göstərilən mənbələrin məlumatlarına əsaslanaraq müəllif tərəfindən tərtib edilmişdir[8; 11;15].

1 saylı cədvəldən göründüyü kimi, IFRS-in tətbiqi əsasən iri və ictimai əhəmiyyətli qurumlarda cəmləşmişdir. Bu, maliyyə hesabatlarının keyfiyyətini və beynəlxalq müqayisəliliyini artırsa da, KOB sektorunda tətbiqin məhdud qalması uçot sisteminin vahidliyini zəiflədir [11, s.98-101].

Rəqəmsallaşma istiqamətində isə son illərdə əhəmiyyətli irəliləyiş müşahidə olunur. Elektron hesabat sistemləri və avtomatlaşdırılmış uçot proqramları məlumatların operativliyini və dəqiqliyini artırmışdır [16, s.28-30]. Bununla belə, rəqəmsal texnologiyaların tətbiqi müəssisələr arasında qeyri-bərabər paylanmışdır.

Audit və nəzarət mexanizmləri maliyyə hesabatlarının etibarlılığının təmin edilməsində mühüm rol oynayır. Azərbaycanda auditor fəaliyyəti hüquqi çərçivə ilə tənzimlənsə də, beynəlxalq təcrübə ilə müqayisədə audit keyfiyyətinin və institusional müstəqilliyin artırılması aktual olaraq qalır [15, s.25-28].

Son illərdə Azərbaycanda maliyyə uçotunun rəqəmsallaşması istiqamətində mühüm addımlar atılmışdır. Elektron vergi sistemləri, rəqəmsal hesabat platformaları və avtomatlaşdırılmış uçot

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

proqramlarının tətbiqi uçot proseslərinin operativliyini və dəqiqliyini artırmışdır. Bu tendensiya dövlət idarəçiliyində rəqəmsallaşma siyasətinin tərkib hissəsi kimi qiymətləndirilir [16, s.31-33].

Azərbaycanda auditor fəaliyyətinin hüquqi əsasları "Auditor xidməti haqqında" Qanunla müəyyən edilir və bu sahədə institusional nəzarət mexanizmləri formalaşdırılmışdır [2]. Bununla belə, beynəlxalq təcrübə ilə müqayisədə audit keyfiyyətinin artırılması və müstəqilliyin gücləndirilməsi istiqamətində əlavə tədbirlərə ehtiyac olduğu qeyd olunur [15, s.33-35].

Beləliklə, Azərbaycanda maliyyə uçotu sistemi beynəlxalq standartlara uyğunlaşma və rəqəmsallaşma istiqamətində inkişaf etsə də, IFRS-in tam tətbiqi, ESG göstəricilərinin inteqrasiyası və audit keyfiyyətinin artırılması kimi məsələlər hələ də aktual problemlər olaraq qalır.

4. Dayanıqlı inkişaf kontekstində maliyyə uçotunun əsas problemləri

Dayanıqlı inkişaf prinsiplərinin maliyyə uçotu sisteminə inteqrasiyası müasir iqtisadiyyatlarda kompleks və çoxölçülü prosesdir. Azərbaycanda bu istiqamətdə müəyyən institusional və normativ addımlar atılsa da, praktiki tətbiq mərhələsində bir sıra sistemli problemlər müşahidə olunur. Bu problemlər əsasən normativ bazanın məhdudluğu, informasiya şəffaflığının zəifliyi, texnoloji infrastrukturun qeyri-bərabər inkişafı, insan kapitalının yetərsizliyi və bazar institutlarının formalaşma səviyyəsi ilə bağlıdır.

4.1. Normativ və metodoloji problemlər

Dayanıqlı inkişaf kontekstində maliyyə uçotunun əsas problemlərindən biri ESG və qeyri-maliyyə göstəricilərinin uçot sisteminə inteqrasiyasının zəif olmasıdır. Ənənəvi mühasibat uçotu sistemi maliyyə nəticələrinin ölçülməsi və hesabatlılığı üzərində qurulduğundan, ekoloji təsirlər, sosial məsuliyyət və korporativ idarəetmə göstəricilərinin ölçülməsi üçün vahid metodoloji çərçivə kifayət qədər inkişaf etməmişdir. Bu isə müəssisələrin fəaliyyətinin tam və obyektiv qiymətləndirilməsini məhdudlaşdırır [5, s.22-27].

Bundan əlavə, beynəlxalq standartların tətbiqi ilə bağlı metodoloji uyğunsuzluqlar mövcuddur. MHBS əsasən maliyyə məlumatlarının təqdimatını tənzimlədiyi halda, ESG göstəricilərinin uçot sisteminə inteqrasiyası üçün əlavə çərçivələr tələb olunur [8, s.45-48]. İƏİT-in (2020) hesabatında qeyd edilir ki, inkişaf etməkdə olan ölkələrdə standartların tətbiqi çox vaxt formal xarakter daşıyır və bu, real iqtisadi məzmunun hesabatlarda əks olunmasını zəiflədir.

Nəticə etibarilə, normativ və metodoloji boşluqlar dayanıqlı inkişaf göstəricilərinin maliyyə uçotu sisteminə sistemli şəkildə inteqrasiyasını çətinləşdirir və hesabatlılıq keyfiyyətinin aşağı düşməsinə səbəb olur.

4.2. İnformasiya şəffaflığı və hesabatlılıq problemləri

Maliyyə uçotu sisteminin effektivliyi böyük ölçüdə təqdim olunan informasiyanın keyfiyyəti və şəffaflığı ilə müəyyən edilir. Azərbaycanda əsas problemlərdən biri qeyri-maliyyə məlumatlarının açıqlanmasının məhdud olmasıdır. ESG göstəricilərinin standartlaşdırılmış şəkildə təqdim edilməməsi investorlar və digər maraqlı tərəflər üçün informasiya asimmetriyasını artırır [6, s.39-42].

Eyni zamanda, müəssisələrin könüllü hesabatlılığa marağının aşağı olması da mühüm problemdir. Bu, bir tərəfdən normativ tələblərin zəifliyi, digər tərəfdən isə bazar təzyiqinin ki-

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

fayət qədər olmaması ilə bağlıdır [15, s.34-37]. İnkişaf etmiş ölkələrlə müqayisədə ESG hesabatlarının investisiya qərarlarında daha az rol oynaması şirkətlərin bu sahəyə investisiya etmə motivasiyasını azaldır.

Bu problemlərin nəticəsi olaraq maliyyə hesabatlarının informativliyi azalır və bu da kapital bazarlarının effektiv fəaliyyətinə mənfi təsir göstərir.

4.3. Rəqəmsallaşma və texnoloji problemlər

Müasir dövrdə maliyyə uçotunun inkişafı rəqəmsal texnologiyaların tətbiqi ilə sıx bağlıdır. Azərbaycanda bu sahədə müəyyən irəliləyişlər əldə olunsa da, uçot sistemlərinin avtomatlaşdırılmasında qeyri-bərabərlik qalmaqdadır. Böyük müəssisələrdə müasir ERP sistemləri və avtomatlaşdırılmış uçot proqramları geniş tətbiq olunduğu halda, KOB subyektlərində bu proses daha məhdud xarakter daşıyır [11, s.110-112]. Bundan əlavə, "İri Həcmli Məlumatlar" ("Big Data"-BD), süni intellekt(Aİ) və analitik alətlərin maliyyə uçotu sistemində tətbiqi hələ ilkin mərhələdədir. Bu texnologiyaların məhdud istifadəsi böyük həcmli məlumatların təhlilini və proqnozlaşdırmanı çətinləşdirir [9, s.18-21].

Texnoloji inkişafın qeyri-bərabərliyi nəticəsində müəssisələr arasında informasiya keyfiyyəti və idarəetmə imkanları baxımından fərqlər yaranır ki, bu da ümumi iqtisadi səmərəliliyə mənfi təsir göstərir.

4.4. İnsan kapitalı və peşəkar kompetensiyalar

Maliyyə uçotunun keyfiyyəti birbaşa olaraq insan kapitalının səviyyəsindən asılıdır. Azərbaycanda mühasibat uçotu sahəsində əsas problemlərdən biri mütəxəssislərin ESG və dayanıqlı hesabatlılıq üzrə biliklərinin kifayət etməməsidir. Ənənəvi uçot bilikləri ilə müqayisədə yeni yanaşmaların tətbiqi üçün əlavə peşəkar hazırlıq tələb olunur [7, s.13-17]. Bundan əlavə, təlim və sertifikatlaşdırma sisteminin beynəlxalq standartlara tam uyğun olmaması da kadr potensialının inkişafını məhdudlaşdırır. Bu isə mühasibat uçotu sisteminin keyfiyyətinə və beynəlxalq uyğunluq səviyyəsinə mənfi təsir göstərir. Nəticə etibarilə, insan kapitalının yetərsizliyi dayanıqlı inkişaf prinsiplərinin praktik tətbiqini ləngidir və institusional transformasiyanı çətinləşdirir.

4.5. İnstitusional və bazar problemləri

Dayanıqlı inkişafın maliyyə uçotu sisteminə inteqrasiyası yalnız normativ deyil, həm də bazar və institusional amillərdən asılıdır. Azərbaycanda KOB subyektlərinin maliyyə və təşkilati resurslarının məhdud olması onların ESG standartlarına uyğunlaşmasını çətinləşdirir [11, s.112-115]. Digər tərəfdən, investorların ESG məlumatlarına tələbinin zəif olması bu sahədə təşviq mexanizmlərinin kifayət qədər inkişaf etmədiyini göstərir. BVF-in hesabatında (2021) qeyd edilir ki, inkişaf etməkdə olan maliyyə bazarlarında ESG amilləri hələ geniş şəkildə investisiya qərarlarına inteqrasiya olunmamışdır. Bu isə müəssisələrin dayanıqlı hesabatlılığa marağını azaldır və nəticədə maliyyə uçotu sistemində struktur dəyişikliklərin sürətini zəiflədir.

Yuxarıda qeyd olunan problemlərin qarşılıqlı əlaqəsini və onların maliyyə uçotu sisteminə təsirini sistemli şəkildə göstərmək məqsədilə aşağıdakı səbəb–nəticə–risk matrisi təqdim olunur (Cədvəl 2).

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

Cədvəl 2.

Dayanıqlı inkişaf kontekstində maliyyə uçotunun problemləri üzrə səbəb-nəticə-risk matrisi

Problemlər	Nəticələr (Effects)	Risklər (Risks)
ESG göstəricilərinin uçota zəif inteqrasiyası	Qeyri-maliyyə məlumatlarının natamamlığı	İnvestor qərarlarında qeyri-dəqiqlik
Standartların tam uyğunlaşdırılmaması	Hesabatların müqayisəliliyinin azalması	Beynəlxalq bazarlara çıxışın məhdudlaşması
Qeyri-maliyyə məlumatlarının açıqlanmaması	İnformasiya asimmetriyası	Kapital bazarlarında etimadın azalması
Könüllü hesabatlılığın zəifliyi	Şəffaflığın aşağı səviyyəsi	Reputasiya riskləri
Rəqəmsallaşmada qeyri-bərabərlik	Uçot məlumatlarının keyfiyyət fərqləri	İdarəetmə qərarlarında qeyri-effektivlik
Big Data və analitikanın zəif tətbiqi	Məlumatların dərin təhlilinin məhdudluğu	Strateji planlaşdırma riskləri
ESG üzrə bilik çatışmazlığı	Uçot proseslərinin qeyri-adekvatlığı	Səhv hesabatlılıq riski
KOB-ların uyğunlaşma çətinlikləri	Standartlardan kənarlaşma	Sistemli inkişafın ləngiməsi
ESG məlumatlarına zəif bazar tələbi	Hesabatlılığa marağın azalması	Dayanıqlı investisiyaların zəifləməsi

Mənbə: göstərilən mənbələrin məlumatlarına əsaslanaraq müəllif tərəfindən tərtib edilmişdir [6;11;15].

2 saylı cədvəldən göründüyü kimi, maliyyə uçotu sistemində mövcud problemlər bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla zəncirvari təsir yaradır. Xüsusilə ESG göstəricilərinin uçota zəif inteqrasiyası və qeyri-maliyyə məlumatlarının açıqlanmasının məhdudluğu informasiya asimmetriyasını artıraraq investor qərarlarının keyfiyyətinə mənfi təsir göstərir [6, s.38-41]. Eyni zamanda, standartların tam uyğunlaşdırılmaması və rəqəmsallaşma səviyyəsindəki fərqlər maliyyə hesabatlarının müqayisəliliyini zəiflədir və beynəlxalq bazarlara inteqrasiyanı çətinləşdirir [11, s.115-117]. Bu isə uzunmüddətli perspektivdə investisiya axınlarının azalması və maliyyə sabitliyinin zəifləməsi kimi risklər yaradır [9, s.21-23].

Beləliklə, təqdim olunan səbəb–nəticə–risk matrisi göstərir ki, maliyyə uçotu sistemindəki problemlər yalnız texniki xarakter daşımır, həm də iqtisadi inkişafın dayanıqlılığına və bazar institutlarının effektivliyinə birbaşa təsir edir.

5. Problemlərin həlli istiqamətləri və tövsiyələr

Dayanıqlı inkişaf prinsiplərinin maliyyə uçotu sisteminə effektiv inteqrasiyası üçün kompleks yanaşma tələb olunur. Bu yanaşma normativ islahatlar, rəqəmsal transformasiya, insan kapitalının inkişafı və institusional şəffaflığın gücləndirilməsi kimi istiqamətləri əhatə etməlidir. Aşağıda təqdim olunan tövsiyələr əvvəlki bölmədə müəyyən edilmiş problemlərin aradan qaldırılmasına yönəlmişdir.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

5.1. Normativ islahatlar

Maliyyə uçotu sisteminin dayanıqlı inkişaf tələblərinə uyğunlaşdırılması üçün ilk növbədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi zəruridir. Bu çərçivədə ESG standartlarının milli uçot sisteminə inteqrasiyası prioritet istiqamət kimi çıxış edir. Xüsusilə Qlobal Hesabat Təşəbbüsü (QHT-Global Reporting Initiative-GRİ) kimi beynəlxalq çərçivələrin tətbiqi qeyri-maliyyə məlumatlarının standartlaşdırılmasına və müqayisəliliyinin artırılmasına imkan yaradır [6, s.42-45]. Bununla yanaşı, İFRS standartlarına tam uyğunlaşmanın təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, maliyyə hesabatlarının keyfiyyətini yüksəldərək beynəlxalq investorlar üçün etibarlılığı artırır [8, s.55-58]. İƏİT (2020) hesabatında qeyd edir ki, normativ uyğunlaşma yalnız formal deyil, praktiki tətbiq mexanizmləri ilə dəstəklənməlidir.

Gözlənilən nəticə: vahid və şəffaf hesabatlılıq sistemi, beynəlxalq inteqrasiyanın güclənməsi.

5.2. Rəqəmsallaşma və innovasiya

Maliyyə uçotunun effektivliyinin artırılması üçün rəqəmsal texnologiyaların tətbiqi genişləndirilməlidir. Süni intellekt, "Big Data" və avtomatlaşdırılmış uçot sistemləri məlumatların emalı sürətini və dəqiqliyini artırmaqla yanaşı, analitik imkanları da genişləndirir [9, s.23-27].

Elektron hesabat platformalarının inkişafı da mühüm istiqamətlərdəndir. Rəqəmsal platformalar vasitəsilə maliyyə və qeyri-maliyyə məlumatlarının vahid sistemdə toplanması şəffaflığı və operativliyi artırır [16, s.41-43]. Bununla yanaşı, KOB subyektləri üçün əlçatan və sadələşdirilmiş rəqəmsal uçot alətlərinin yaradılması rəqəmsallaşmada mövcud qeyri-bərabərliyin aradan qaldırılmasına kömək edə bilər [11, s.115-117].

Gözlənilən nəticə: uçot proseslərinin avtomatlaşdırılması, qərar qəbuletmənin effektivliyinin artması.

5.3. Təhsil və peşəkar inkişaf

Dayanıqlı inkişaf prinsiplərinin tətbiqi üçün insan kapitalının inkişafı həlledici rol oynayır. Bu baxımdan, mühasiblər üçün ESG yönümlü təlim proqramlarının təşkili zəruridir. Bu proqramlar qeyri-maliyyə hesabatlılığı, inteqrasiya olunmuş hesabatlılıq və dayanıqlı maliyyə alətləri üzrə biliklərin artırılmasına yönəlməlidir [7, s.21-23].

Beynəlxalq sertifikatlaşdırma sistemlərinin (məsələn, ACCA, CPA və s.) təşviqi də peşəkar kompetensiyaların yüksəldilməsinə töhfə verir. Bu, mühasibat uçotu sisteminin beynəlxalq standartlara uyğunluğunu gücləndirir və kadr potensialının keyfiyyətini artırır.

Gözlənilən nəticə: yüksək ixtisaslı kadr bazası, uçot sisteminin keyfiyyətinin yüksəlməsi.

5.4. Şəffaflığın artırılması

Maliyyə uçotu sistemində şəffaflığın artırılması üçün qeyri-maliyyə hesabatlılığın müəyyən səviyyədə məcburi tətbiqi məqsədəuyğun hesab olunur. Bu yanaşma ESG göstəricilərinin sistemli şəkildə açıqlanmasını təmin edir və informasiya asimmetriyasını azaldır [6, s.52-57].

Eyni zamanda, korporativ idarəetmə mexanizmlərinin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Effektiv idarəetmə strukturları maliyyə və qeyri-maliyyə məlumatlarının düzgün və vaxtında açıqlanmasına şərait yaradır [15, s.43-48]. Bununla yanaşı, investorların ESG məlumatlarına marağının artırılması üçün təşviq mexanizmlərinin formalaşdırılması da vacibdir. Bu, dayanıqlı investisiyaların inkişafına və maliyyə bazarlarının dərinləşməsinə töhfə verə bilər [9, s.28-31].

Gözlənilən nəticə: şəffaflıq səviyyəsinin yüksəlməsi, investor etimadının artması.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

Y E K U N

Aparılmış tədqiqat göstərir ki, dayanıqlı inkişaf prinsiplərinin maliyyə uçotu sisteminə inteqrasiyası müasir iqtisadi şəraitdə strateji əhəmiyyət kəsb edir. Xüsusilə BMT tərəfindən müəyyən edilmiş Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində maliyyə və qeyri-maliyyə məlumatlarının vahid sistemdə təqdim olunması iqtisadi subyektlərin fəaliyyətinin daha obyektiv qiymətləndirilməsinə imkan yaradır.

Tədqiqat nəticələri Azərbaycanda maliyyə uçotu sisteminin beynəlxalq standartlara uyğunlaşma istiqamətində müəyyən irəliləyişlərə nail olduğunu göstərsə də, bu prosesin hələ tam başa çatmadığını ortaya qoyur. Xüsusilə İFRS standartlarının tətbiqində qeyri-bərabərlik, ESG göstəricilərinin uçot sisteminə məhdud inteqrasiyası, qeyri-maliyyə hesabatlılığın zəif inkişafı və rəqəmsallaşma səviyyəsində fərqlər əsas problemlər kimi müəyyən edilmişdir.

Məqalədə aparılmış təhlil göstərir ki, mövcud problemlər yalnız texniki xarakter daşımır, həm də institusional və bazar amilləri ilə sıx bağlıdır. Normativ bazanın məhdudluğu, insan kapitalının yetərsizliyi və investor tələbinin zəifliyi maliyyə uçotu sisteminin dayanıqlı inkişaf tələblərinə uyğun transformasiyasını ləngidir. Bu isə nəticə etibarilə maliyyə hesabatlarının keyfiyyətinə, şəffaflığa və investisiya mühitinə mənfi təsir göstərir.

Tədqiqat çərçivəsində irəli sürülən tövsiyələr - ESG standartlarının inteqrasiyası, rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi, peşəkar kadr hazırlığının gücləndirilməsi və qeyri-maliyyə hesabatlılığın inkişafı - maliyyə uçotu sisteminin təkmilləşdirilməsi üçün əsas istiqamətlər kimi çıxış edir. Bu tədbirlərin həyata keçirilməsi maliyyə hesabatlarının etibarlılığını artırmaqla yanaşı, ölkənin beynəlxalq maliyyə sisteminə inteqrasiyasını da gücləndirə bilər.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikası. (2004). “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı.
2. Azərbaycan Respublikası. (1994). “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı.
3. Barth, M. E., Landsman, W. R., & Lang, M. H. (2008). International accounting standards and accounting quality. Journal of Accounting Research, 46(3), 467–498, pp. 470–485.
4. Bushman, R. M., & Smith, A. J. (2001). Financial accounting information and corporate governance. Journal of Accounting and Economics, 32(1–3), 237–333, pp. 240–267.
5. Eccles, R. G., & Krzus, M. P. (2010). One Report: Integrated Reporting for a Sustainable Strategy. Wiley, pp. 15–42.
6. GRI (2020). GRI Sustainability Reporting Standards, pp. 21–57.
7. IFAC (2020). The Role of Professional Accountants in Sustainable Development, pp. 10–26.
8. IFRS Foundation. (2021). International Financial Reporting Standards (IFRS), pp. 35–74.
9. IMF. (2021). Climate-related Financial Risks: Issues and Policy Responses, pp. 12–31.
10. Lev, B. (2001). Intangibles: Management, Measurement, and Reporting. Brookings Institution Press, pp. 17–39.
11. OECD. (2020). SME Policy Index: Eastern Partner Countries 2020. OECD Publishing, pp. 88–121.
12. Sachs, J. D. (2015). The Age of Sustainable Development. Columbia University Press, pp. 1–54.
13. UN (2015). Transforming Our World: The 2030 Agenda for Sustain able Development, pp. 5–27.
14. WCED. (1987). Our Common Future. Oxford University Press, pp. 43–65.
15. World Bank. (2019). Azerbaijan: ROSC – Accounting and Auditing, pp. 18–46.
16. World Bank. (2020). Digital Development Overview: Azerbaijan, pp. 22–39.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

Rza Ahmad Gasimov,
Ph.D. (Econ.),
Baku Business University,
E- mail: axmedovic1963@gmail.com;

Ramiz Javad Javadov,
Ph.D. (Econ.), Associate Professor,
Azerbaijan State University of Economics (UNEC),
E-mail: *ramizjavad@gmail.com*
© R.A.Gasimov, R.J.Javadov, 2026

IMPROVEMENT OF THE FINANCIAL ACCOUNTING SYSTEM IN AZERBAIJAN BASED ON SUSTAINABLE DEVELOPMENT AND ESG APPROACHES

A B S T R A C T

The purpose of the research is to analyze the current state of the financial accounting system in Azerbaijan within the context of sustainable development goals, to identify key regulatory, institutional, and methodological problems, and to develop scientific and practical recommendations for their resolution.

The methodology of the research is based on a systematic and comprehensive approach, employing comparative analysis, statistical analysis, and analytical generalization methods. The information base consists of data from international organizations (World Bank, IMF, OECD) as well as national sources. The analysis is conducted using an ESG-based approach.

The practical importance of the research lies in the applicability of its results for the development of regulatory reforms, implementation of ESG reporting, enhancement of transparency, and improvement of accounting education systems.

The results of the research indicate that although the financial accounting system in Azerbaijan has largely aligned with international standards, a number of systemic challenges still persist. The implementation of IFRS remains concentrated primarily among large enterprises, while its adoption within SMEs is still limited. Furthermore, the integration of ESG indicators into financial reporting continues to remain at a weak level, whereas the high degree of integration between financial and tax accounting restricts the analytical and managerial capabilities of enterprises. In addition, disparities in the digitalization process, the shortage of qualified human capital, and the insufficient level of investor demand for ESG-related information constitute some of the major obstacles hindering the development of a modern accounting system.

The originality and scientific novelty of the research lies in the fact that the financial accounting system in Azerbaijan is analyzed for the first time comprehensively within the framework of sustainable development and ESG principles. The study evaluates the level of IFRS implementation in a structured manner, presents a cause–effect–risk matrix, and systematizes the identified problems within a unified analytical framework.

Keywords: sustainable development, financial accounting, ESG, IFRS, integrated reporting, digitalization, corporate governance, transparency.

AUDİT 2026, 2 (52), səh. 12-23
AUDIT 2026, 2 (52), pp. 12-23.
АУДИТ 2026, 2 (52), стр. 12-23.

Гасымов Рза Ахмед оглы,
кандидат экономических наук,
Бакинский Университет Бизнеса,
E-mail: axmedovic1963@gmail.com;

Джавадов Рамиз Джавад оглы,
доктор философии по экономике, доцент,
Азербайджанский Государственный
Экономический Университет (UNEC),
E-mail: ramizjavad@gmail.com
© Гасымов Р.А., Джавадов Р.Дж., 2026

СОВЕРШЕНСТВОВАНИЕ СИСТЕМЫ ФИНАНСОВОГО УЧЕТА В АЗЕРБАЙДЖАНЕ НА ОСНОВЕ ПРИНЦИПОВ УСТОЙЧИВОГО РАЗВИТИЯ И “ESG”-ПОДХОДОВ

Р Е З Ю М Е

Целью исследования является анализ современного состояния системы финансового учета в Азербайджане в контексте целей устойчивого развития, выявление ключевых нормативных, институциональных и методологических проблем, а также разработка научно-практических рекомендаций по их решению.

Методология исследования основана на системном и комплексном подходе с использованием методов сравнительного анализа, статистического анализа и аналитического обобщения. Информационную базу составляют данные международных организаций (World Bank, IMF, OECD), а также национальных источников. Анализ проведен на основе ESG-подхода.

Практическая значимость исследования заключается в возможности использования полученных результатов при разработке нормативных реформ, внедрении ESG-отчетности, повышении прозрачности, а также совершенствовании системы бухгалтерского образования.

Результаты исследования показывают, что, несмотря на адаптацию системы финансового учета в Азербайджане к международным стандартам, сохраняется ряд системных проблем. Применение IFRS в основном сосредоточено в крупных предприятиях, тогда как среди малых и средних предприятий его распространение остается ограниченным. Интеграция ESG-показателей в финансовую отчетность по-прежнему находится на недостаточном уровне, а высокая степень интеграции финансового и налогового учета ограничивает аналитические и управленческие возможности предприятий. Наряду с этим, существующее неравенство в процессе цифровизации, дефицит квалифицированного человеческого капитала, а также недостаточно сформированный спрос инвесторов на ESG-информацию относятся к числу ключевых факторов, препятствующих развитию современной системы учета.

Оригинальность и научная новизна исследования заключается в том, что система финансового учета в Азербайджане впервые комплексно проанализирована в контексте устойчивого развития и ESG-подхода. В работе структурировано оценен уровень внедрения IFRS, представлена матрица «причина–следствие–риск», а также систематизированы проблемы в рамках единой аналитической модели.

Ключевые слова: устойчивое развитие, финансовый учет, ESG, IFRS, интегрированная отчетность, цифровизация, корпоративное управление, прозрачность.

Məqalə redaksiyaya daxil olmuşdur: 02.03.2026
Təkrar işlənməyə göndərilmişdir: 30.04.2026
Çapa qəbul olunmuşdur: 26.05.2026

Дата поступления статьи в редакцию: 02.03.2026
Отправлено на повторную обработку: 30.04.2026
Принято к печати: 26.05.2026

The date of the admission of the article to the editorial office: 02.03.2026
Send for reprocessing: 30.04.2026
Accepted for publication: 26.05.2026